DÜNYA

# ABŞ Senatı Rusiyaya qarşı 'cəhənnəm sanksiyaları' paketini qəbul etdi

Avqust 07, 2026




ABŞ Konqresi

ABŞ Senatı Rusiya və İrana qarşı sanksiyaların genişləndirilməsini nəzərdə tutan **"Lindsey O. Graham Sanctioning Russia and Iran Act of 2026"** qanun layihəsini böyük səs çoxluğu ilə qəbul edib. Sənədin lehinə 86, əleyhinə isə 11 senator səs verib. İndi ona Nümayəndələr Palatası baxmalıdır.

Qanun layihəsi həm Rusiyaya, həm də Moskvanın Ukraynadakı müharibəni maliyyələşdirməsinə dəstək verənlərə qarşı ilkin və ikinci dərəcəli sanksiyaları nəzərdə tutur. Məhdudiyyətlərin Rusiya rəsmilərini, iri iş adamlarını, onların ailə üzvlərini, bankları, digər maliyyə qurumlarını və Rusiyanın "kölgə donanması"na məxsus gəmiləri əhatə edəcəyi gözlənilir.

Sənəd ABŞ prezidentinə Rusiya neft və qazını ən çox alan, yaxud Moskvaya sanksiyalardan qaçmağa kömək edən ilk beş ölkənin mallarına 100 faizə qədər gömrük rüsumu qoymaq hüququ verir. Rusiya neftinin ən böyük alıcıları arasında Çin və Hindistan da var.

Bundan əlavə, mövcud qadağaların bitməsinə imkan verməmək üçün qanun layihəsində İrana qarşı sanksiyaların müddəti daha beş il uzadılır.

Qanun layihəsini ilk dəfə respublikaçı senator Lindsi Qrem irəli sürüb və iyulda onun ölümündən sonra sənədə elə onun adı verilib. Senatorun vəfatından sonra Donald Tramp mərhum siyasətçinin arzusuna əsaslanaraq layihəyə İrana qarşı sanksiyaların da salınmasını tələb edib.

Qanunun qüvvəyə minməsi üçün sənədi Nümayəndələr Palatası təsdiqləməli, daha sonra isə prezident Donald Tramp imzalamalıdır. Palatanın yay tətilindən sonra qanun layihəsinin müzakirəsinə qayıdacağı gözlənilir.

## Buna da bax:

Senator Rik Skott: 'Putin quldurdur'

OCCRP: Azərbaycan qeydiyyatlı onlarla şirkət Rusiyanın 'kölgə donanması' tankerlərini idarə edir

'ABŞ İran-Rusiya-Çin-Şimali Koreya oxunu yetərincə qiymətləndirmir'– müsahibə

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur